**Dönərxanalarda aparılan monitorinqlərin nəticələrinə dair məlumat (14 avqust 2024)**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən dönərxanalarda hazırlanan dönərlərin minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi məqsədilə monitorinqlər həyata keçirilir.

Ölkə üzrə monitorinq keçirilən **310** müəssisədə sanitar-gigiyenik və sanitar-texniki vəziyyət qiymətləndirilib ki, onlardan **1** müəssisənin vəziyyəti qənaətbəxş hesab olunub, **309** müəssisədə isə bir sıra nöqsanlar aşkar edilib.

Monitorinq çərçivəsində **209** müəssisə üzrə **220 toyuq** əti, **74 mal** əti olmaqla, **ümumillikdə**, **294** dönərdən nümunələr götürülərək müayinə məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. **64** dönər nümunəsində (**47** toyuq əti və **17** mal əti) **E.Coli** bakteriyası, **1** toyuq dönəri nümunəsində **L.monocytogenes** bakteriyası və **1** mal ətindən dönər nümunəsində **toyuq əti DNT-si** aşkar edilib. **158** müəssisə üzrə **215** dönər nümunəsində hər hansı uyğunsuzluq aşkar edilməyib.

Aparılan yoxlamalar zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların pozulması ilə bağlı bir sıra uyğunsuzluqlar aşkar edilib ki, bununla əlaqədar **21** müəssisədə işlərin görülməsi, xidmətlərin göstərilməsinin dayandırılması, **1** müəssisədə çiy dönər emalının dayandırılması, **16** müəssisədə iş personalının üzvünün (üzvlərinin) kənarlaşdırılması ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar qəbul edilib. Həmçinin aşkar edilən pozuntularla bağlı müəssisə rəhbərliyi barəsində inzibati tədbir görülüb və nöqsanların aradan qaldırılması ilə bağlı icrası məcburi göstərişlər verilib.

Əlavə edək ki, Agentlik tərəfindən aparılan nəzarət tədbirləri ilə yanaşı, dönər satışı həyata keçirilən qida obyektlərində sağlamlaşdırıcı tədbirlər də icra edilib, sahibkarlara metodiki dəstək göstərilib. Belə ki, görülən tədbirlər nəticəsində **14** müəssisədə sağlamlaşdırıcı tədbirlər həyata keçirilib. Eyni zamanda, dönər satışı həyata keçirilən **310** obyektdə istehlakçıların maarifləndirilməsi məqsədilə hazırlanan posterin yerləşdirilməsi təmin olunub. Bununla yanaşı, həmin ictimai iaşə müəssisələrinin rəhbərlərinə bu sahədə mövcud tələbləri özündə əks etdirən xəbərdarlıq məktubları göndərilib.